Aqrar Xidmətlər Agentliyi

# Fındıqda Unlu Şeh (Erysiphaceae)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Unlu şeh xəstəliyini “Phyllactinia guttata” göbələyi törədir. Göbələk bitkilərin yarapaqlarını zədələyir və una oxşar örtük əmələ gətirir. Örtük yarpağın alt səthində əvvəlcə zəif, sonra isə sıx olur. Xəstəlik bitkilərin birillik budaqlarını daha cox zədələyir. Unlu şeh xəstəliyinə tutulmuş yarpaqlar saralıb quruyur və vaxtsız tökülür. Xəstəliyə tutulmuş bitkilərin yarpaqlarında maddələr mübadiləsi pozulur, bitkinin inkişafı zəifləyir, məhsuldarlığı aşağı düşür və keyfiyyəti pisləşir.

## Mübarizə tədbirləri

- unlu şeh xəstəliyinə qarşı əsas mübarizəni təşkil etmək üçün ilk növbədə yerə tökülmüş yarpaqlar yığılaraq məhv edilməlidir.
- bitkilərin vegetasiya dövründə xəstəliyə qarşı təsiredici maddəsi penconazole, 1%-li kolloid kükürdün suspenziyası və ya 1%-li əhəng kükürd həlimi ilə 2-3 dəfə çiləmə aparılmalıdır. Birinci çiləmə xəstəliyin yenicə əmələ gəlmə dövründə, ikinci və üçüncü çiləmələr isə hər 12-15 gündən bir təkrarlanmalıdır.



**Yoluxmuş bitki**